# Yeni kitablar

## "Vətən oğulları"




Şəhla Xəlilqızı təbiəti sevərək tərənnüm edən bir şair xanımdır. Sevgi motivli şeirləri, təbiətin gözəlliyini nəzmə çəkməsi onu bir qələm əhli kimi rayon əhalisinə tanıtdı. Bu tanıtımı onun oxucularına təqdim etdiyi "Getmə amandı" adlı ilk şeirlər kitabı etmişdi.

Ancaq Şəhla Xəlilqızı bu gün dövrümüzün ən aktual mövzusu olan vətənpərvərlik, milli dəyərlər mövzusunda yazır. Vətən müharibəsi; 44 gündə elimizin igid oğullarının göstərdiyi şücaətlər onun qəlbində özünəməxsus bir doğmalıqla yer tutmuşdur. O, müharibə iştirakçıları ilə görüşmüş, şəhid ailələrinin hər zaman dərdlərinə şərik olmuşdur. Şəhidlər haqqında ayrı-ayrılıqda şeirlər yazmış, ürəyinin yanğısını nəzmə çəkərək onların xatirəsini yad etmişdir. Qazilərin həyata, yaşamağa inamını yüksəltmiş, döyüşçülərin hər birinin yaddaşlarda iz buraxdığını öz şeirlərində ifadə etmişdir.

"Vətən oğulları" şeirlər kitabı müəllifin ikinci kitabı sayılır. Bu kitabı vərəqlədikcə, elimizin qəhrəman oğullarının hər birinin əbədiyyən qəlblərdə yaşadığını hiss edir və onlarla qürur duyursan!. Qələminə qüvvət, Şəhla xanım!

## "Vətən sağ olsun"




Düşünməsi belə inanılmaz! Kim inanardı ki, həmişə qəlbi, dili nəğməli-sözlü Cəlil Səfərçinov bu gün şəhid balasına həsr olunmuş kitab yazacaq?! Ata adının soyad götürülməsinə rəğmən ata oğul adını özünə soyad qəbul edəcək?! Qələm hər sözünü, hər hərfini hansı göz yaşları və acılarla yazdığını da qələmə ala bildinmi, şəhid atası?! Sən təkcə Xeyirbəyin deyil, sən ömrü baharda "donan" bütöv şəhidlərin atasısan. Sənin beş minə yaxın şəhid övladın var. Onların qəhrəmanlığı həm də sənin və sənin timsalında bütün şəhid atalarının qəhrəmanlığıdır. Axı qəhrəman anadan elə doğulmur, onu tərbiyə edərək böyüdən atalar, analar elə böyüdür: əqidəcə, insanlıqca!

Görəsən "Vətən sağ olsun" kitabını Cəlil Xeyirbəyin imzasıyla oxucu necə, hansı hiss və qürurla oxuyacaq?

Hər halda bu kitabı oxumaq üçün böyük ürək sahibi olmaq, vətənpərvər və mənəvi cəhətcə zəngin olmaq lazımdır ki, o şeirləri qəlbinə köçürə biləsən.

## İzim qalsın




Hər yurdun, hər obanın öz gözəl yazarları, ziyalıları vardır. Hansı ki, onlar lap uşaq yaşlarında söz sənətinə, şeirə maraq göstərirlər. Bu cür insanlar Qəbələmizdə də az deyil. Hələ orta məktəb illərindən şeir yazmağa başlayan Elmira Abdurəhmanqızı "Qəbələnin səsi" ədəbi birliyinin fəal üzvlərindəndir.

Elmira xanımın 2018-ci ildə "Bu bir dostluqdurmu, yoxsa məhəbbət" adlı şeirlər kitabı toplusu işıq üzü görmüşdür. Elmira xanımın şeirlərinə nəzər saldıqda, necə axıcı və bədii cəhətdən mənalı olduğunu görmək mümükündür. Elmira Abdurəhmanqızının 2-ci kitabı isə yenicə çapdan çıxmış "İzim qalsın" şeirlər kitabıdır. Bu kitabda həm vətənpərvərlik, həm də məhəbbət mövzusunda şeirlərə yer verilmişdir. Kitabda yer alan vətənpərvərlik mövzusunda olan "Azərbaycan oğulları" şeirinin bir bəndinə nəzər salaq:

***Polad şəhid olan gündən,***
***Qürur dolu yol seçdilər.***
***"Qanı yerdə qalmayacaq"***
***Qisas üçün and içdilər.***

Elmira xanım, misralardan da göründüyü kimi, general Polad Həşimovun şəhidliyinin gənclərimizə təsirindən, onlarda qisas hissinin yaranmasını təsvir edib.

***Dağlarının zirvəsi,***
***Sis, dumanlı Qəbələm.***
***Dünya kimi qocaman,***
***Mənim şanlı Qəbələm.***

Bu şeirində isə Elmira xanım öz doğma elinin gözəlliklərini, xüsusəndə dağlarını çox gözəl və məharətlə təsvir etmişdir. Daha sonra bu kitabda həmçinin, dostluğa aid şeirlərə də yer verilmişdir. Elmira xanıma yaradıcılıq həyatında uğurlar arzulayırıq. Ümid edirik ki, "İzim qalsın" kitabı da digər kitabı kimi oxucularının qəlbinə yol tapacaq.

## Küləklər əsdi




Qəbələ yazarları arasında sayılıb, seçilən, tanınan imzalardan biri də Mirhəsən Ağayevin imzasıdır. Mirhəsən Əlibala oğlu Ağayev Qəbələ rayon Mirzəbəyli kənd orta məktəbində müəllim kimi işləmişdir. 1970-ci ildə Şəki pedapoji texnikumunu, 1985-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi institutunu qiyabi olaraq bitirmişdir. Vətənpərvər şair olan Mirhəsən Ağayevin indiyə kimi 3 kitabı çapdan çıxıb. Bu yaxınlarda isə 4-cü kitabı - "Küləklər əsdi" işıq üzü görüb. Onun şeirlərinə nəzər saldıqda Vətənin tərənnümü, dostluq, yoldaşlıq, sevgi, təbiət təsviri yaradıcılığının əsasını təşkil edir. Mirhəsən müəllimə yaradıcılığında uğurlar arzu edirik.

**BİBİXANIM.**

# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi

"Peşə təhsili xüsusi əhəmiyyət daşıyan məsələdir, xüsusilə indiki şəraitdə. Bu gün Azərbaycanda yaradılan yeni peşə məktəbləri, əlbəttə ki, sovet vaxtında mövcud olan peşə məktəblərindən böyük dərəcədə fərqlənir. Sovet vaxtında daha çox orta məktəbdə böyük nəticələr əldə edə bilməyən uşaqlar 8-ci sinifdən peşə məktəblərinə üz tuturdular və bu, adi bir praktika idi. Bu gün isə peşə məktəbləri çox böyük hörmətə layiq məktəblər olmalıdır. Əlbəttə ki, burada da, ilk növbədə, ümumi inkişaf meylləri nəzərə alınmalıdır, hansı peşələr bizə nə vaxt lazım olacaq. Odur ki, peşə məktəblərinin gələcək inkişafı daim diqqət mərkəzində olmalıdır".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 iyul 2020-ci ildə yeni Təhsil nazirimizi videoformatda qəbul edərkən söylədiyi bu fikirlər ölkənin peşə təhsili ictimaiyyəti üçün proqram sənədinə çevrilib. Azərbaycanın peşə təhsili müəssisələri bu konseptual məqsəddən doğan böyük ruh yüksəkliyi ilə işləyirlər.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi öz təhsil taleyinin yüksəliş dövrünə qədəm qoymuşdur.Yarım əsrə yaxın inkişaf yolu keçmiş bu məktəb 2017-ci ildə iki peşə təhsil müəssisəsinin bazasında yenidən yaradılmış, 2021-ci ilin yanvar ayından publik hüquqi şəxs statusu almışdır. 1,300 kvadratmetrə yaxın sahəsi olan ikimərtəbəli və üçmərtəbəli tədris korpusları, 2,6 hektar ərazidə tədris-istehsalat sahəsi, zəngin təlim-texniki vasitələrlə təmin olunmuş ümumi sayı 150-yə çatan auditoriyalar, fənn kabinetləri, laboratoriya və tədris emalatxanaları, 280 yerlik konfrans zalı, fondu minlərlə ölçülən kitabxana, iki böyük qazanxana, 80 yerlik yataqxana, tələbə və müəllim yeməkxanası, kompüter informasiya mərkəzi, habelə təlim məqsədləri üçün alınmış ağır və kiçik qabaritli kənd təsərrüfatı texnikaları, dəzgahlar, aparatlar, qaynaq qurğuları, iaşə avadanlıqları tələbə və mühəndis-pedaqoji heyətimizin ixtiyarındadır.

Rayonumuzun sosial-iqtisadi sferasının hər yerində bu təhsil müəssisəsinin məzunlarına rast gəlmək mümkündür. Digər bölgələrimizdə, hətta respublikamızın hüdudlarından kənarda çalışan çox saylı məzunlarımız vardır.

Orta pillə kadrlarını haqlı olaraq inkişafın lokomotivi adlandırırlar. Bu mütəxəssislər bir başa peşə təhsil müəssisələrində yetişirlər. Hazırki iqtisadi yüksəlişdə əlavə dəyər zəncirinin elə bir halqası yoxdur ki, orada ixtisasına uyğun praktik biliklərə yiyələnmiş səriştəli orta pillə kadrları olmadan keçinmək mümkün olsun.

Qəbələ ölkəmizin güclü inkişaf etmiş aqrar və turizm bölgəsidir. Əmək bazarı burada durmadan inkişaf edir və hər gün yeni tələblərlə çıxış edir. Güclənən mehmanxana təsərrüfatı, zənginləşən restoranlar şəbəkəsi, istirahət-əyləncə zonaları, qış turizmi kompleksi, yeni standartlara uyğun aqrar müəssisələri və s. yeni dünyagörüşlü, sahibkar düşüncə tərzinə malik, üstün ünsiyyət imkanlarına yiyələnmiş gəncləri sürətlə soraqlamaqdadır.

Belə müasir kadrlar isə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində hazırlanır. Mərkəzimiz vətəndaşlar üçün əlçatan təhsil və karyeranın ünvanıdır. İndi burada 2021-2022-ci tədris ilinə ciddi hazırlıq gedir. Hazırda yeni dərs ili üçün tələbə qəbuluna start verilmişdir. Müraciətlər elektron qaydada həyata keçirilir. Yaş həddi yoxdur, hər kəs müraciət edə bilər. Şəxsiyyət vəsiqəsi və müvafiq təhsil sənədi ( ümumi və ya tam orta təhsil bazasından attestat) yetərlidir. <https://portal.edu.az> saytında qeydiyyatdan keçməklə müsabiqəyə dəvət alacaqsınız.

Mərkəzdə təhsil dövlət vəsaiti hesabına və ödənişli əsaslarla aparılır. Ümumi orta ( 9-cu sinif) təhsil bazasından daxil olmaqla təhsil müddəti 1 il, 2 il və 3 il (litsey) qruplarda, tam orta (11-ci sinif) təhsil bazasından isə 6 ay, 1 il olan qruplarda peşə öyrənmək imkanı vardır. İxtisaslarımız çox şaxəli və rəngarəngdir:

Geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər;

Aqroservis mütəxəssisi; Kənd təsərrüfatı məhsulları istehsalı üzrə fermer; Üzümçülük və şərab ustası; Dərzi; Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik mantyoru; Aşpaz; Əməliyyatçı-mühasib; Turizm sahəsində iaşə üzrə mütəxəssis; Turizm təşkilatçısı; Mehmanxana inzibatçısı; Qənnadçı, şirniyyatçı; Bağban-dekorator; Dayə; Heyvandarlıq mütəxəssisi; Xalçaçı; Çilingər -santexnik; Arıçı; Bərbər-vizajist-manikürçü;

Kadr hazırlığında daha bir uğurlu yeniliyə imza atılmışdır. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 2021/2022-ci tədris ilində ilk dəfə olaraq yüksək texniki peşə təhsil səviyyəsinin tədrisi aparılacaqdır. Qeyd edək ki, yüksək texniki peşə təhsili səviyyəsi - peşə təhsil pilləsinin ən yüksək səviyyəsi olmaqla subbakalavr ixtisas dərəcəsi üzrə kadr hazırlığını nəzərdə tutur. Bu təhsil səviyyəsi müxtəlif texnologiya və texniki proseslərin tətbiqi, uyğunlaşdırılması və optimallaşdırılması üzrə işləri icra edəcək nəzəri və praktiki bacarıqlara sahib kadrların hazırlanmasını həyata keçirir. Peşə təhsili ilə ali təhsil pilləsi arasında keçid imkanlarını təmin edir.

Ümumi orta təhsil bazasından (9-cu sinif, təhsil müddəti 4 il) Baytarlıq və heyvandarlıq işi, Mehmanaxana və restoran işinin təşkili və idarə edilməsi, Tam orta təhsil bazasından (11-ci sinif, təhsil müddəti 3 il) Mehmanaxana və restoran işinin təşkili və idarə edilməsi, Veb dizayn və proqram təminatı, Mühasibat uçotu ixtisasları üzrə qəbul keçirilir. Əsas məqsəd işəgötürənlərlə birgə iş yerinin tələblərinə uyğun ixtisas üzrə texniki və idarəetmə səriştələrinə malik kadr hazırlığını həyata keçirmək və əmək bazarının tələblərini ödəməkdir. Bu ixtisaslara yiyələnən mütəxəssislər subbakalavrlara bərabər tutulan bütün imtiyazlara sahib olur və təhsilin sonrakı pilləsinə rahat keçid əldə edirlər.

Bu qəbul prosesi də müvafiq saytda (<https://portal.edu.az>) qeydiyyatdan keçməklə aparılır. Ümid edirik ki, qəbul prosesi müvəffəqiyyətlə başa çatacaq, əhalimizin məşğulluq prablemlərinin həllinə diqqətəlayiq töhvə göstərəcəkdir.

Keyfiyyətli təhsil və uğurlu karyeranın ünvanı Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində sizi daima gözləyirik.

**Qəbələ DPTM.**

QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2021-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 15 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# İTMİŞDİR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ şəhər, İ.B.Qutqaşınlı küçəsi, ev 540 da yaşayan **Səlimov Füzuli Əlibala oğluna** məxsus torpaq sahəsinə aid 1259866 nömrəli **çıxarış və fərdi yaşayış evinin texniki pasportu** itdiyi üçün etibarsız sayılır

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Mərkəzi Xəstəxasının kollektivi Mərkəzi Xəstəxananın direktoru **Sabir Bayramova** anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Müalicə-Dioqnostika Mərkəzinin direktoru Ceyhun Əhmədov rayon Mərkəzi Xəstəxanasının direktoru **Sabir Bayramova** anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1200*